**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**5714.01 - Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı üçün**

# PROQRAM

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Elmi Şurasının qərarı ilə tövsiyə edilmişdir**

**(2026-ci il 31 mart 5 saylı protokol)**

**BAKI – 2026**

Tərtib edənlər: prof. Oqtay Cəlilbəyli

b/m., f.ü.f.d. Ellada Məmmədova

Elmi redaktor: prof. Oqtay Cəlilbəyli

Rəyçilər: f.ü.e.d., dos. Kəmalə Əhmədova

f.ü.f.d., dos. Cavanşir Muradov

## İZAHAT VƏRƏQI

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik" ixtisası üzrə doktoranturaya qəbul imtahanı üçün hazırlanmış Yapon dili və Ümumi dilçilik fənləri proqramı namizədlərin bu sahədə nəzəri hazırlıq səviyyəsini müəyyənləşdirmək məqsədi daşıyır. Bu proqram dilçiliyin əsas anlayışlarını, tarixi inkişaf mərhələlərini və metodoloji əsaslarını sistemli şəkildə əhatə etməklə, dilin kompleks bir fenomen kimi dərk olunmasına xidmət edir.

## PROQRAMIN MƏZMUNU

**Dilçiliyin təşəkkülü**

Ümumi dilçilik dilin mahiyyətini, strukturunu və inkişaf qanunauyğunluqlarını öyrənən fundamental elmi sahədir. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də insan təfəkkürünün ifadə forması və cəmiyyətin mühüm atributudur. Bu baxımdan dilçiliyin predmeti dilin daxili quruluşunu, funksiyalarını və tarixi inkişafını araşdırmaqdan ibarətdir. Ferdinand de Sössürün "Ümumi dilçilik kursu" əsərində dil işarələr sistemi kimi təqdim olunur və dil ilə nitq anlayışları arasında fərq qoyulur. Vilhelm fon Humboldt isə dili statik sistem kimi deyil, dinamik və yaradıcı fəaliyyət kimi qiymətləndirir.

Dilçiliyin tarixi inkişafı çox qədim dövrlərə gedib çıxır. Yazının meydana gəlməsi ilə dilin öyrənilməsi üçün ilk əsaslar yaranmışdır. Piktoqrafik yazıdan başlayaraq ideoqrafik, sillabik və fonetik yazı sistemlərinə keçid dilin strukturunun daha dərindən dərk olunmasına imkan yaratmışdır. Bu inkişaf ardıcıllığı səs, heca, söz və cümlə kimi dil vahidlərinin sistemli şəkildə öyrənilməsinə zəmin hazırlamışdır.

Qədim hind dilçiliyi bu sahədə xüsusi yer tutur. Panininin yaratdığı qrammatika sistemi dilin elmi şəkildə təsvirinin ilk nümunələrindən biri hesab olunur. Bu ənənə sonrakı dövrlərdə də inkişaf etdirilmiş və dilçilik elminin formalaşmasına mühüm təsir göstərmişdir. Qədim yunan dilçiliyində isə dil məsələlərinə həm fəlsəfi, həm də praktik yanaşmalar mövcud olmuşdur. Heraklit, Demokrit, Platon və Aristotel kimi filosoflar dilin mahiyyəti və söz ilə əşya arasındakı əlaqə məsələlərini araşdırmışlar. Aristotel sözlə əşya arasında təbii deyil, şərti əlaqə olduğunu göstərərək bu sahədə mühüm nəzəri nəticəyə gəlmişdir.

Yunan dilçiliyinin inkişafında İskəndəriyyə məktəbinin də rolu böyük olmuşdur. Bu məktəbin nümayəndələri dilin strukturunu sistemli şəkildə öyrənmiş, nitq hissələrini təsnif etmiş və qrammatik qaydaları müəyyənləşdirmişlər. Onların fəaliyyəti sonrakı dilçilik ənənələrinin formalaşmasına ciddi təsir göstərmişdir.

Orta əsrlərdə ərəb-müsəlman dilçiliyi mühüm inkişaf mərhələsi keçmişdir. Bu dövrdə dilçilik əsasən “Qurani-Kərim”in dilinin qorunması və izahı məqsədilə inkişaf etmişdir. Ərəb dilçiliyi yalnız ərəb dilini deyil, eyni zamanda fars və türk dillərini də öyrənmişdir. Lakin bu tədqiqatlar çox vaxt ərəb dilinin modeli əsasında aparıldığından müəyyən metodoloji məhdudiyyətlər mövcud olmuşdur.

Avropada orta əsrlərdə dilçilik əsasən latın dilinin qrammatikası ilə bağlı olmuşdur. Latın dili uzun müddət elm və təhsil dili kimi istifadə edildiyindən, dilçilik tədqiqatları daha çox normativ xarakter daşımışdır. Lakin İntibah dövründə vəziyyət dəyişmiş, antik dillərə maraq artmış və milli dillərin qrammatikaları yaradılmışdır. Eyni zamanda coğrafi kəşflər nəticəsində müxtəlif dillərin mövcudluğu haqqında biliklər genişlənmişdir.

XVII–XVIII əsrlərdə dilçiliyin inkişafına fəlsəfi cərəyanlar – rasionalizm və sensualizm təsir göstərmişdir. Bu dövrdə yaradılmış Por-Royal qrammatikası dilin ümumi qanunauyğunluqlarını izah etməyə yönəlmişdir. Bununla yanaşı, tarixilik prinsipinin güclənməsi dillərin müqayisəli şəkildə öyrənilməsinə zəmin yaratmışdır.

XIX əsrin əvvəllərində müqayisəli-tarixi metodun yaranması dilçilikdə dönüş nöqtəsi olmuşdur. Frans Bopp, Rasmus Rask və Yakob Grimm kimi alimlərin tədqiqatları nəticəsində dillərin qohumluğu müəyyən edilmiş və dil ailələri təsnif olunmuşdur. Bu metod dilçiliyin inkişafında yeni mərhələ açmış və ümumi dilçiliyin formalaşmasına gətirib çıxarmışdır.

Beləliklə, dilçilik elmi uzun tarixi inkişaf yolu keçərək müasir səviyyəyə çatmışdır. Bu inkişaf nəticəsində dil yalnız təsviri obyekt kimi deyil, həm də kompleks və dinamik sistem kimi öyrənilməyə başlanmışdır. Ümumi dilçilik isə bu sistemin qanunauyğunluqlarını araşdıraraq dil haqqında elmi biliklərin əsasını təşkil edir.

**Dilçiliyin təkamülü**

Dilçiliyin təşəkkül mərhələsindən sonra onun təkamülündə təkcə müqayisəli metodun kəşfi deyil, həm də dilə fəlsəfi yanaşmanın formalaşması mühüm rol oynamışdır. Müqayisəli metod dillər arasındakı əlaqələri və tarixi inkişafı müəyyənləşdirməyə imkan versə də, dilin mahiyyətini tam izah etmək üçün kifayət etmirdi. Bu səbəbdən dilçiliyin inkişafı üçün nəzəri əsaslara, yəni metodologiyaya ehtiyac yaranmışdır. Bu istiqamətdə ən böyük xidmət Vilhelm von Humboldt-a məxsusdur. O, dili sadəcə ünsiyyət vasitəsi kimi deyil, insanın daxili mənəvi aləmi və təfəkkürü ilə bağlı canlı və yaradıcı fəaliyyət kimi izah etmişdir. Humboldtun fikrincə, dil xalqın ruhu ilə sıx bağlıdır və onun dünyagörüşünü əks etdirir. Bu yanaşma dilçiliyin ümumi nəzəri səviyyəyə yüksəlməsinə zəmin yaratmışdır. Dilçiliyin təkamülü nəticəsində müxtəlif məktəblər formalaşmışdır. Naturalizm məktəbinin nümayəndəsi Avqust Şlayxer dili təbii orqanizm kimi izah edərək onun inkişafını təkamül prosesi ilə əlaqələndirmişdir. Psixoloji dilçilik məktəbinin nümayəndəsi Hayman Ştayntal isə dili insan şüuru və psixoloji proseslərlə bağlı şəkildə izah etmişdir. XIX əsrdə meydana çıxan gənc qrammatiklər dil dəyişmələrinin qanunauyğun xarakter daşıdığını irəli sürərək canlı danışıq dilinin öyrənilməsinə üstünlük vermişlər. Onların fikrincə, hər bir səs dəyişməsi müəyyən qanunlara tabedir və analogiya dilin inkişafında mühüm rol oynayır. Lakin onların yanaşması sonradan birtərəfli hesab edilərək tənqid olunmuşdur. Bu tənqidlər nəticəsində yeni istiqamətlər yaranmışdır. Hüqo Şuxardtın “Sözlər və şeylər” məktəbi dil ilə reallıq arasındakı əlaqəni ön plana çəkmiş, Karl Fossler isə dilin estetik və yaradıcı mahiyyətini vurğulamışdır. Neolinqvistlər isə dil hadisələrinin coğrafi yayılmasını və semantik tərəfini əsas götürmüşlər. Dilçiliyin təkamülündə ən mühüm mərhələFerdinand de Sössürün fəaliyyəti ilə bağlıdır. O, dili işarələr sistemi kimi izah etmiş və dilçilik elminin predmetini dəqiq müəyyənləşdirmişdir. Onun irəli sürdüyü dil–nitq, sinxroniya–diaxroniya kimi anlayışlar müasir dilçiliyin əsasını təşkil edir. Beləliklə, dilçiliyin təkamülü empirik müşahidədən nəzəri sistemə keçid prosesi kimi xarakterizə olunur. Bu

inkişaf nəticəsində dilçilik müasir mərhələdə dili kompleks və çoxşaxəli sistem kimi öyrənən müstəqil elm sahəsinə çevrilmişdir.

**Dilçiliyin tənəzzülü**

Dilçiliyin təkamül mərhələsi Ferdinand de Sössür ilə zirvəyə çatdıqdan sonra bu sahədə müəyyən durğunluq və istiqamət dəyişikliyi müşahidə olunmağa başladı. "Ümumi dilçilik kursu"nun təsiri ilə yaranan struktur dilçilik məktəbləri dili əsasən daxili sistem kimi araşdırmağa yönəldi və nəticədə dilçiliyin mövzusu müəyyən qədər məhdudlaşdı. Sonrakı mərhələdə isə müxtəlif multidissiplinar sahələrin meydana çıxması dilin daha çox xarici amillərlə əlaqədə öyrənilməsinə gətirib çıxardı. Sössürün ideyaları əsasında bir neçə mühüm dilçilik məktəbi formalaşdı: Cenevrə məktəbi, Praqa funksional dilçiliyi, Kopenhagen qlossematikası və Amerika deskriptiv dilçiliyi. Bu məktəblər onun nəzəriyyəsini inkişaf etdirməyə çalışsalar da, əsasən mövcud ideyaları şərh və tətbiq etməklə kifayətləndilər. Məsələn, Cenevrə məktəbi Sössürün anlayışlarını sistemləşdirməyə və dəqiqləşdirməyə yönəldi, Praqa məktəbi dilin funksional tərəfini ön plana çəkdi, Kopenhagen məktəbi dili formal struktur kimi izah etdi, Amerika deskriptivizmi isə dili obyektiv təsvir prinsipləri əsasında öyrənməyə çalışdı. Lakin zaman keçdikcə struktur dilçiliyin imkanları məhdudlaşdı və dilçilik yeni istiqamətlər axtarmağa başladı. Bu mərhələdə etnolinqvistika, sosiolinqvistika, psixolinqvistika, neyrolinqvistika, koqnitiv dilçilik və digər multidissiplinar sahələr meydana gəldi. Bu sahələr dili müxtəlif aspektlərdən – sosial, psixoloji, mədəni və idraki baxımdan araşdıraraq dilçiliyin tədqiqat sahəsini genişləndirdilər. Bununla yanaşı, dilin daxili strukturunun öyrənilməsindən müəyyən uzaqlaşma da müşahidə olundu. Müasir dövrdə dilçilikdə antroposentrik yanaşma güclənmişdir. Dil artıq yalnız sistem kimi deyil, insanı və onun təfəkkürünü anlamaq üçün əsas vasitə kimi qəbul edilir. Bu səbəbdən digər elmlərin dilə marağı artmış və dilçilik müxtəlif sahələrlə sıx əlaqəyə girmişdir. Bununla belə, klassik dilçilik prinsipləri dilin müstəqil sistem kimi öyrənilməsinin vacibliyini qoruyub saxlayır.

XX əsrdə dilçiliyin inkişafında mühüm hadisələrdən biri də Noam Xomskinin fəaliyyəti olmuşdur. O, dilin yalnız müşahidə olunan formalarla deyil, insan şüurunda mövcud olan

daxili qaydalarla izah edilməli olduğunu irəli sürmüşdür. Xomskinin törədici qrammatika nəzəriyyəsi dilçiliyi yeni mərhələyə çıxarmış və “kompetensiya” və “işlənmə” kimi anlayışları elmə gətirmişdir.

Beləliklə, dilçiliyin tənəzzül dövrü əslində yalnız geriləmə deyil, həm də istiqamət dəyişikliyi ilə səciyyələnir. Bu mərhələdə dilçilik bir tərəfdən parçalanaraq müxtəlif sahələrə bölünmüş, digər tərəfdən isə yeni nəzəri axtarışlarla zənginləşmişdir. Nəticədə, müasir dilçilik həm klassik ənənələri qoruyan, həm də yeni yanaşmaları qəbul edən çoxşaxəli elm sahəsinə çevrilmişdir.

**Dilçiliyin metodları**

Dilçilikdə hər hansı nəticənin elmi əhəmiyyət qazanması onun müəyyən metoda əsaslanması ilə bağlıdır. Ümumiyyətlə, metod elmi idrakın əsas vasitəsidir və faktların sadə təsvirindən daha artıq məna daşıyır. Elmi təcrübə göstərir ki, metod əsasən iki istiqamətdə təzahür edir: induktiv və deduktiv. İnduktiv yanaşma ayrı-ayrı faktlardan ümumi nəticəyə gəlməyi, deduktiv yanaşma isə ümumi qanunauyğunluqlar əsasında konkret hadisələri izah etməyi nəzərdə tutur. Hər iki yanaşmanın birtərəfli tətbiqi müəyyən çatışmazlıqlara səbəb ola bildiyi üçün dilçilikdə ən səmərəli yol onların qarşılıqlı əlaqədə istifadəsidir.

Dilçilik tarixində böyük alimlərin uğuru təkcə seçdikləri metodla deyil, həmin metoddan doğan dərin nəzəri ümumiləşdirmələrlə bağlı olmuşdur. Müqayisəli dilçiliyin baniləri, məsələn, Frans Bopp, Rasmus Rask və Yakob Grimm daha çox metodoloji nailiyyətləri ilə tanınmışlar. Vilhelm fon Humboldt isə əksinə, dili izah edən geniş və sistemli nəzəri baxışları ilə seçilmişdir. Bu fakt göstərir ki, dilçilikdə metod və nəzəriyyə bir-birindən ayrılmazdır. Bəzən metod nəzəriyyəni qabaqlayır, bəzən də nəzəri baxış metodun istiqamətini müəyyənləşdirir.

Dilçilikdə çoxsaylı tədqiqat üsulları mövcud olsa da, klassik baxımdan üç əsas metod xüsusi əhəmiyyət daşıyır: təsviri metod, müqayisəli-tarixi metod və müqayisəli-tipoloji metod. Bu metodlar təkcə dilçiliyin deyil, ümumən humanitar elmlərin inkişafında mühüm rol oynamışdır. Lakin müşahidələr göstərir ki, bu metodlar ən məhsuldar şəkildə məhz dilçilikdə tətbiq olunmuşdur.

**Təsviri metod** dilin müəyyən vəziyyətdə öyrənilməsinə xidmət edir. Hər bir elmi araşdırma müşahidə ilə başlayır və əgər lazım gələrsə, təcrübə ilə davam etdirilir. Lakin müşahidədən fərqli olaraq, təsvir artıq metoddur. Bu metodun məqsədi dil vahidlərini sistemli şəkildə qeyd etmək, təsnif etmək və onların qarşılıqlı münasibətlərini aydınlaşdırmaqdır. Təsviri metod həm sinxron, həm də diaxron dilçilikdə istifadə olunur. Sinxron yanaşmada bu metod daha çox sistemləşdirmə, sintaqmatik və paradiqmatik əlaqələrin müəyyənləşdirilməsi ilə bağlıdır. Diaxron istiqamətdə isə sosioloji, coğrafi, psixoloji və fizioloji yanaşmalarla tamamlanır. Təsviri metod digər iki əsas metod üçün də baza rolunu oynayır. Çünki hər hansı dili müqayisə etmək üçün əvvəlcə onu düzgün və müfəssəl təsvir etmək lazımdır.

**Müqayisəli-tarixi metod** dilçiliyin ən mühüm metodlarından biri hesab olunur. Bu metod XIX əsrin əvvəllərində formalaşsa da, onun kökləri daha qədim dövrlərə gedib çıxır. Müxtəlif dillərin ardıcıl şəkildə müqayisəyə cəlb olunması və xalqların tarixi inkişafı ilə bağlı təsəvvürlərin genişlənməsi bu metodun yaranmasına zəmin yaratmışdır. Müqayisəli-tarixi metodun əsas məqsədi qohum dillər arasındakı əlaqəni müəyyənləşdirmək, onların ortaq xüsusiyyətlərini üzə çıxarmaq və mümkün olduqda pradili bərpa etməkdir. Bu metod həm dil ailələrinin müəyyənləşdirilməsi, həm də dillərin inkişaf mərhələlərinin izlənilməsi baxımından son dərəcə əhəmiyyətlidir.
Bu metodun gücü ondadır ki, o, dilin keçmişinə yalnız yazılı mənbələr vasitəsilə deyil, rekonstruksiya yolu ilə də nüfuz etməyə imkan verir. Xüsusilə qədim yazılı abidələrin az olduğu hallarda müqayisə və bərpa üsulu dil tarixini anlamaq üçün vacib vasitəyə çevrilir. Bununla yanaşı, müqayisəli-tarixi metodun tətbiqi yalnız dildaxili amillərlə məhdudlaşmır; bəzən coğrafi, siyasi və mədəni amillər də dilin inkişafını izah etməkdə rol oynayır. Lakin bu metodun ən mühüm şərti müqayisəyə cəlb olunan dillərin yetərincə zəngin materialla təmsil olunmasıdır.

**Müqayisəli-tipoloji metod** isə qohumluq münasibətlərindən asılı olmayaraq dillərin struktur xüsusiyyətlərini müqayisə etməyə yönəlir. Bu metodun məqsədi dillərin hansı tipə aid olduğunu müəyyənləşdirmək və müxtəlif dillər arasında ortaq, yəni universal cəhətləri aşkara çıxarmaqdır. Tarixən Avqust və Fridrix Şlegel qardaşları, daha sonra isə Vilhelm

fon Humboldt bu metodun əsaslarını formalaşdırmışlar. Onlar dilləri əsasən amorf, aqqlütinativ, flektiv və sonradan inkorporlaşan tiplərə ayırmışlar.
Müasir dilçilikdə müqayisəli-tipoloji metod yalnız dillərin tipoloji təsnifatı ilə kifayətlənmir. Bu gün həmin metod dillərin ayrı-ayrı səviyyələrini – fonetik, morfoloji, sintaktik və semantik xüsusiyyətlərini – müqayisə etməklə daha ümumi qanunauyğunluqları üzə çıxarmağa xidmət edir. Bu baxımdan tipoloji müqayisə, əslində, induktiv xarakter daşıyır. Çünki burada mötəbər nəticəyə gəlmək üçün çoxlu sayda faktın sistemli şəkildə müqayisəsi tələb olunur.
Beləliklə, dilçiliyin metodları bu elmin nəzəri və praktik əsaslarını təşkil edir. Təsviri metod dili olduğu vəziyyətdə öyrənməyə, müqayisəli-tarixi metod onun keçmişini bərpa etməyə, müqayisəli-tipoloji metod isə dillər arasında struktur oxşarlıq və fərqləri müəyyənləşdirməyə imkan verir. Bu metodların birgə tətbiqi dilin həm daxili quruluşunu, həm də tarixi inkişafını daha dərindən anlamağa şərait yaradır.

**Dilin mahiyyəti**

Dilçilik elminin qarşısında duran əsas suallardan biri “dil nədir?” sualıdır. Bu suala cavab vermək, əslində, dilin mahiyyətini müəyyənləşdirmək deməkdir. Müxtəlif dövrlərdə və müxtəlif məktəblərdə fəaliyyət göstərən dilçilər bu məsələni fərqli şəkildə izah etsələr də, onların baxışlarında ortaq cəhətlər də az deyildir. Bu isə göstərir ki, dil həm mürəkkəb, həm də çoxcəhətli hadisədir.
Vilhelm fon Humboldt dili fikir formalaşdıran orqan hesab edir və onu xalqın ruhu ilə sıx bağlı şəkildə izah edirdi. Avqust Şlayxer dili təfəkkürün səslərdə təzahürü kimi qiymətləndirirdi. Haynrix Ştayntal isə dili insanın daxili psixi və ruhi hallarının ifadəsi sayırdı. Hüqo Şuxardt dilin mahiyyətini ünsiyyətlə bağlayırdı. Ferdinand de Sössür isə dili anlayışları ifadə edən işarələr sistemi kimi müəyyənləşdirmişdir. Bu baxışlar arasında fərqlər olsa da, hamısı dilin sadəcə sözlər yığını deyil, düşüncə, ünsiyyət və sistemliliklə bağlı mürəkkəb bir hadisə olduğunu göstərir.
Dilin mahiyyətini anlamaq üçün, adətən, üç əsas məsələyə diqqət yetirilir: dil və təfəkkür münasibəti, dilin funksiyaları və dilin işarələr sistemi olması. Hər üç istiqamət dilin fərqli tərəflərini açmağa imkan verir. Birinci məsələ dilin daxili və düşüncə ilə bağlı mahiyyətini, ikinci məsələ onun ictimai funksiyasını, üçüncü isə struktur təbiətini izah edir.

Dil və təfəkkür məsələsi dilçiliyin ən mühüm problemlərindən biridir. Təfəkkürün dilsiz, dilin isə təfəkkürsüz mövcudluğu elmi baxımdan qəbul edilmir. İnsan düşündüyünü dil vasitəsilə formalaşdırır və ifadə edir. Humboldtun da qeyd etdiyi kimi, heç bir təfəkkür dil formalarından kənarda tam təzahür edə bilməz. Ferdinand de Sössür də göstərirdi ki, işarələr sistemi olmadan anlayışları bir-birindən dəqiq fərqləndirmək mümkün deyildir. Bu baxımdan dil təkcə ünsiyyət vasitəsi deyil, həm də təfəkkürün təşkili üçün zəruri şərtdir. Noam Xomskinin araşdırmaları da dil ilə təfəkkür arasındakı bu dərin bağlılığı bir daha göstərmişdir.

Dilin mahiyyətini aydınlaşdıran başqa bir mühüm məsələ onun funksiyalarıdır. Dil ilk növbədə, insanın fikrini ifadə etməsi və başqa insanlarla ünsiyyət qurması üçün mövcuddur. Buna görə də onun iki əsas funksiyası fərqləndirilir: ekspressiv və kommunikativ funksiya. Ekspressiv funksiya fikrin formalaşmasını və ifadəsini təmin edir, kommunikativ funksiya isə bu fikrin cəmiyyətdə ötürülməsinə xidmət edir. Bu iki funksiya bir-birindən ayrılmazdır. İnsan dili həm düşünmək, həm də düşündüyünü başqasına çatdırmaq üçün işlədir.

Dilin üçüncü mühüm cəhəti onun işarələr sistemi olmasıdır. Sössürün təlimində bu məsələ xüsusi yer tutur. Onun fikrincə, dil işarəsi əşya ilə onun adını deyil, anlayışla akustik obrazı birləşdirir. Yəni dilin əsas vahidi olan işarə iki tərəfdən ibarətdir: işarələnən və işarələyən. Bu əlaqə təbii deyil, şərtidir. Sözlə onun ifadə etdiyi məna arasında birbaşa təbii bağ yoxdur. Lakin dil sistemi mürəkkəb və kollektiv xarakter daşıdığı üçün bu işarələr sabitlik qazanır və cəmiyyət daxilində ümumi ünsiyyət vasitəsinə çevrilir.

Beləliklə, dilin mahiyyəti yalnız bir tərəfdən izah edilə bilməz. Dil həm təfəkkürün vasitəsi, həm ünsiyyətin əsas aləti, həm də işarələr sistemidir. Məhz bu çoxşaxəli mahiyyət onu insan həyatının ən mühüm hadisələrindən birinə çevirir. Dil nəinki insanın düşündüyünü ifadə etməsinə, həm də cəmiyyətin formalaşmasına, mədəniyyətin qorunmasına və biliyin nəsildən-nəslə ötürülməsinə xidmət edir.

**Daxili, yaxud sinxron dilçilik**

Dilçilikdə mühüm bölgülərdən biri daxili, yaxud sinxron dilçiliklə xarici, yaxud diaxron dilçiliyin fərqləndirilməsidir. Ferdinand de Sössür sinxron dilçiliyi “həqiqi dilçilik”

adlandıraraq göstərirdi ki, onun əsas vəzifəsi müəyyən zaman anında dil sisteminin necə qurulduğunu, hansı prinsiplərlə fəaliyyət göstərdiyini və onu təşkil edən vahidlərin bir-biri ilə hansı münasibətdə olduğunu müəyyənləşdirməkdir. Başqa sözlə, sinxron dilçilik dili tarixi dəyişmə prosesindən kənarda, müəyyən bir anda mövcud olan tam sistem kimi öyrənir.

Sinxron yanaşmanın əsas üstünlüyü ondadır ki, o, dilin daxili quruluşunu bütöv şəkildə görməyə imkan verir. Burada hər bir vahid yalnız özlüyündə deyil, bütün sistem daxilində qiymətləndirilir. Əgər dil vahidləri bütövdən ayrılaraq öyrənilərsə, onda alınan nəticə natamam və qüsurlu olar. Buna görə də sinxron dilçilikdə əsas prinsip dilin bütün elementlərini qarşılıqlı əlaqədə araşdırmaqdır.

Dilin strukturu, əsasən, sintaqmatik və paradiqmatik münasibətlərlə müəyyən olunur. Sintaqmatik münasibətlər dil vahidlərinin nitq axınında yanaşı gəlməsi və xətti əlaqəsi ilə bağlıdır. Paradiqmatik münasibətlər isə eyni mövqedə bir-birini əvəz edə bilən vahidlər arasındakı assosiativ əlaqəni bildirir. Bu münasibətlər dil sisteminin daxili mexanizmini anlamaq üçün əsasdır. Bəzən bunlara iyerarxik münasibətlər də əlavə olunur ki, bu da dilin müxtəlif səviyyələri arasındakı əlaqəni göstərir.

Sinxron dilçilik əsasən üç böyük sahəyə ayrılır: fonologiya, qrammatika və leksikologiya. Bu sahələrin hər biri dilin daxili quruluşunun müəyyən tərəfini öyrənir.

**Fonologiya** dilin səs sistemini araşdırır. Burada əsas məsələ danışıq səslərinin fiziki və fizioloji xüsusiyyətlərindən daha çox, onların dil sistemində daşıdığı funksional roldur. Fonologiyanın əsas vahidi fonemdir. Fonem sözdə mənanı fərqləndirən ən kiçik vahiddir. Bu sahənin inkişafında Praqa məktəbinin və xüsusilə N.S. Trubetskoyun böyük rolu olmuşdur. O, fonemlərin müəyyənləşdirilməsi və fərqləndirilməsi üçün elmi prinsiplər irəli sürmüşdür. Beləliklə, fonologiya göstərir ki, dilin səs tərəfi yalnız akustik hadisə deyil, həm də struktur və funksional sistemdir.

**Qrammatika** dilçiliyin ən qədim və ən mühüm sahələrindən biridir. Dil haqqında ilkin təsəvvürlər məhz qrammatika üzərində qurulmuşdur. Qrammatika söz formalarını, onların dəyişməsini, cümlə quruluşunu və dil vahidlərinin əlaqə qaydalarını öyrənir. Tarix boyu qrammatika müxtəlif nəzəri təsirlərə məruz qalsa da, dilçilikdə öz əsas mövqeyini qorumuşdur. Ferdinand de Sössür qrammatikanı dilin müəyyən vəziyyətinin sistemli təsviri kimi qəbul edir, Noam Xomski isə onu daha dərin universal prinsiplər baxımından

izah etməyə çalışır. Bu da göstərir ki, qrammatika yalnız qaydalar toplusu deyil, dilin daxili sistemini ifadə edən əsas sahədir.

**Leksikologiya** dilin söz ehtiyatını öyrənir. Lakin onun dilçilikdəki mövqeyi həmişə eyni dərəcədə güclü olmamışdır. Çünki dilçilik çox zaman sözdən daha kiçik və ya daha böyük vahidlərə daha çox diqqət yetirmişdir. Buna baxmayaraq, söz dilin əsas işarəsi olaraq qalır. Hər bir söz predmet, məna və akustik obrazın vəhdəti əsasında mövcud olur. Sözün mahiyyəti də məhz bu üç komponentlə müəyyən olunur. Bu baxımdan çoxmənalılıq, omonimlik, sinonimlik və antonimlik kimi hadisələr leksikologiyanın əsas tədqiqat sahələrini təşkil edir.

Beləliklə, sinxron dilçilik dili müəyyən zaman anında mövcud olan sistem kimi öyrənir və onun daxili quruluşunu açmağa çalışır. Fonologiya, qrammatika və leksikologiya bu sistemin əsas sahələri olaraq dilin həm səslərini, həm quruluşunu, həm də mənalı vahidlərini öyrənir. Buna görə də sinxron dilçilik dilin canlı strukturu haqqında ən dolğun elmi təsəvvürü yaradan istiqamət hesab olunur.

---

### Xarici, yaxud diaxron dilçilik

Sinxron dilçilik dili müəyyən zaman anında sabit sistem kimi öyrəndiyi halda, diaxron dilçilik onun zaman içində necə dəyişdiyini və inkişaf etdiyini araşdırır. Ferdinand de Sössürə görə, diaxron dilçilik dilin bütöv sistemindən çox, onun ayrı-ayrı elementlərində baş verən dəyişiklikləri izləyir. Yəni burada əsas diqqət dilin tarixə yayılmış hərəkətinə, dəyişmə istiqamətlərinə və inkişaf mərhələlərinə yönəlir.

Diaxron dilçilik, əsasən, iki istiqamətdə inkişaf edir: birincisi, dilin tarixinin tədqiqi, ikincisi isə dil ilə dilxarici amillər arasındakı münasibətlərin öyrənilməsi. Dilin tarixini araşdırmaq üçün yalnız daxili dil faktlarını deyil, həm də coğrafi, siyasi, sosial və mədəni şəraiti nəzərə almaq lazımdır. Çünki dil dəyişməsi çox zaman cəmiyyətin ümumi inkişafı ilə bağlı olur.

Dil tarixi dilçiliyin ən mürəkkəb sahələrindən biridir. Uzun müddət bu sahədə dilin mənşəyi problemi əsas yer tutmuşdur. İlahi mənşə, əmək nəzəriyyəsi, səs təqlidi və nidalar nəzəriyyəsi kimi müxtəlif yanaşmalar meydana çıxmışdır. Lakin müasir dilçilikdə bu nəzəriyyələr daha çox tarixi maraq daşıyır. Bu gün əsas diqqət dilin necə yarandığından çox, yarandıqdan sonra necə inkişaf etdiyinə yönəlmişdir.

Müqayisəli dilçiliyin baniləri dili inkişaf edən hadisə kimi öyrənməyə başlamışlar. Onların fikrincə, dillər zaman keçdikcə dəyişir, bir-birindən ayrılır və yeni dil vahidləri meydana çıxır. Avqust Şlayxer bu prosesi təbiətdəki təkamül qanunları ilə əlaqələndirməyə çalışmışdır. Onun naturalist yanaşması bu gün tam qəbul olunmasa da, dillərin tarixi inkişafını sistemli şəkildə izah etmək baxımından mühüm rol oynamışdır.

Diaxron dilçilikdə gənc qrammatiklərin xidməti xüsusilə böyükdür. Onlar dil tarixini ümumi fəlsəfi mülahizələrdən ayıraraq konkret faktlar əsasında öyrənməyə üstünlük vermişlər. German Paulun da qeyd etdiyi kimi, dil hər hansı mədəni hadisə kimi tarixi baxışın predmetidir. Bu məktəb dil dəyişmələrini qanun kimi deyil, müəyyən prinsip və ardıcıllıq əsasında izah etməyə çalışmışdır. Beləliklə, dilin tarixi bütöv sistemin birdən-birə dəyişməsi deyil, onun ayrı-ayrı elementlərində baş verən tədrici dəyişikliklərin məcmusu kimi başa düşülməyə başlamışdır.

Dil tarixinin digər mühüm tərəfi onun etnos və cəmiyyətlə əlaqəsidir. Bu baxımdan etnolinqvistika və sosiolinqvistika diaxron dilçiliyin mühüm sahələri sayılır.

**Etnolinqvistika** dil ilə xalqın mədəniyyəti, dünyagörüşü və etnik xarakteri arasındakı bağlılığı öyrənir. Hər bir xalq üçün dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də onun tarixi yaddaşı, mədəni kimliyi və mənəvi dünyasının ifadəsidir. Dil etnosun formalaşmasında, özünü dərk etməsində və mədəni dəyərlərin qorunmasında mühüm rol oynayır.

**Sosiolinqvistika** isə dili cəmiyyətlə əlaqədə öyrənir. Bu sahə dilin sosial funksiyalarını, cəmiyyət daxilində yayılmasını, dil siyasətini, dövlət dili məsələsini və müxtəlif sosial qruplar arasında dil fərqlərini araşdırır. Müasir dövrdə sosiolinqvistika təkcə elmi deyil, həm də siyasi və mədəni baxımdan böyük əhəmiyyət daşıyır. Bir ölkədə hansı dilin dövlət dili olması, dilin hansı sahələrdə işlənməsi və müxtəlif dillərin qarşılıqlı münasibəti bu sahənin əsas problemlərindəndir.

Beləliklə, diaxron dilçilik dilin yalnız keçmişini deyil, həm də onun cəmiyyət, tarix və mədəniyyətlə bağlı inkişaf yolunu öyrənir. Sinxron dilçilik dilin daxili sistemini anlamağa kömək edirsə, diaxron dilçilik həmin sistemin zaman içində necə dəyişdiyini göstərir. Bu iki yanaşma birlikdə dilin tam və hərtərəfli öyrənilməsi üçün zəruri hesab olunur.

## ƏDƏBİYYAT

1. Axundov A.A. Ümumi dilçilik, Bakı, 2006.

2. Cəfərov N.Q. Ümumi dilçilik, Bakı, 2020.

3. Rəcəbli Ə.Ə. Nəzəri dilçilik, Bakı, 2003.

4. Кодухов В.И. Общее языкознание, Москва, «Высшая школа»,1974.